Ədəbiyyat qəzeti
18 iyul / 2020

# Yunus OĞUZ - 60



Hörmətli Yunus müəllim!

Sizi - tanınmış nasir, dramaturq və publisisti 60 yaşınız münasibətilə ürəkdən təbrik edirik.

Siz dünyaya indiki Şirvan şəhərində göz açmış, orta təhsilinizi başa vurduqdan sonra doğma şəhərinizdə əmək fəaliyyətinə başlamış, 1983-88-ci illərdə Rostov Dövlət Universitetinin fəlsəfə fakültəsində təhsilinizi başa vurduqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda elmi işçi vəzifəsində çalışmısınız. 1991-92-ci illərdə "Ordu" qəzetində baş redaktor, 1993-cü ildə Azərbaycan Respublikası prezidentinin müşaviri olmusunuz. 1995-ci ildən bu günə qədər "Olaylar" qəzeti və "Olaylar" informasiya agentliyinin baş redaktorusunuz.

Məsul vəzifələrdə çalışmaqla yanaşı, siz istedadlı qələm sahibi, yazıçı, dramaturq və publisist kimi tanınırsınız. 1994-cü ildə ilk publisist əsəriniz - "Siyasi hakimiyyətin idarəetmə prinsipləri" işıq üzü gördükdən sonra "Qədim Anadolu və Azərbaycan türkləri", "Qarabağ nəzarətsiz zona", "Türkün tarixinə yeni bir baxış" və s. araşdırmalarınız çap olunub. Bu əsərlərin bir çoxu türk, fars, rus dillərində də işıq üzü görüb.

Siz "Qadın ulduzu", "Attila", "Nadir şah", "Təhmasib şah", "Əmir Teymur - zirvəyə doğru", "Əmir Teymur - dünyanın hakimi", "Atabəy Eldəniz, "Səfəvi şeyxi" və s. sanballı bədii nəsr əsərlərinin, romanların müəllifisiniz. Bədii yaradıcılığınızın bir qolu da dramaturgiyadır. "Nadir Şah" pyesiniz Azərbaycan Akademik Milli Dram Teatrında uğurla tamaşaya qoyulub. Eyni zamanda "Altun dəftər", "Attila" adlı pyeslərin müəllifisiniz. 22 ölkədə 52 kitabınız işıq üzü görüb. Əsərləriniz haqqında ölkəmizin ən görkəmli ədəbiyyatşünasları resenziyalar yazmışlar.

Siz ölkə başçısının Sərəncamı ilə "Əməkdar Mədəniyyət işçisi" fəxri adıyla təltif olunmuş, "Tərəqqi" medalına layiq görülmüşsünüz.

Hörmətli Yunus müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**